# DÜNYA DÖVLƏTLƏRİNİN GEOSİYASİ MARAQLARINDA AZƏRBAYCANIN YERİ

**M.M.MƏMMƏDLİ**
*AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu*

Azərbaycan min illəri geridə qoyan tarixə və zəngin mənəvi mədəniyyətə malik olan bir ölkədir. Tarixin müxtəlif mərhələlərində Azərbaycanda regionun böyük dövlətləri yaranmış və bir çox hallarda onunla paralel mədəni intibah dövrü yaşanmışdır. Məhz gedən bu proseslərin nəticəsində ölkəmizdə əsaslı dövlətçilik ənənələri və dünya mədəniyyətinə böyük töhfələr vermiş zəngin mədəni irs formalaşmışdır. Bununla belə, Azərbaycanın əlverişli coğrafi məkanda yerləşməsi və təbii sərvətlərlə bol olması onun daima kənar güclərin işğalçılıq siyasətinə məruz qalmasına səbəb olmuşdur. Xüsusilə son iki yüz ilə yaxın dövr ərzində vətənimizin rus imperiyasının əsarəti altında olması tarixdə xalqımızın bir sıra həyati əhəmiyyətli üstünlüklərdən məhrum olması ilə yadda qalır.

İlk növbədə, Azərbaycan müstəmləkə ölkə kimi, istər çar Rusiyası, istərsə də Sovetlər zamanı beynəlxalq münasibətlərin ayrıca subyekti funksiyasını itirmişdir. Bununla da ölkəmiz dünyada və regionda gedən siyasi, iqtisadi, mədəni proseslərdən müəyyən istisnalarla kənarda qalmışdır. Burada «müəyyən istisnalar» dedikdə Rəşid Behbudov, Zeynəb Xanlarova və digər böyük sənətkarlarımızın şəxsində mədəni dəyərlərimizin, musiqimizin dünyada təbliği nəzərdə tutulur. Həqiqətən də, 1991-ci ilə kimi, yəni, müstəqilliyimizi yenidən bərpa edənə qədər belə böyük mədəniyyət xadimlərimizin xidməti sayəsində Azərbaycan, müəyyən mənada, özünü dünyada tanıda bilmişdir. Bununla belə, qeyd etdiyimiz kimi, Azərbaycanın imperiya və yaxud ittifaq daxilində olması onun dünya dövlətləri ilə hərtərəfli əlaqələr qurmasına imkan verməmişdir. Lakin ittifaq dağılandan və ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan dünyaya fəal inteqrasiya olunan geosiyasi mərkəzlərdən birinə çevrildi. Ümumiyyətlə, son 15 ildə ölkəmizlə və regionumuzla bağlı gedən ziddiyyətli proseslərin araşdırılmasını istəyiriksə, ilk növbədə yerləşdiyimiz coğrafi məkanın geosiyasi mövqeyinə və o cümlədən, dünya güclərinin, böyük dövlətlərin Azərbaycanda olan geosiyasi maraqlarına diqqət yetirmək lazımdır. Geosiyasətin əsasında coğrafi mövqe və insan amili dayanır. Məhz bu iki amilə görə Azərbaycanın olduqca vacib geosiyasi mövqeyə malik olmasını demək olar. Azərbaycanın geosiyasi gücünü xarakterizə edən amillər bunlardır: 1) Azərbaycan Avrasiyanın bir hissəsi kimi quru ərazi gücünə malikdir. 2) Azərbaycan dəniz sahilində yerləşir. 3) Azərbaycan Avropa-Asiya dəhlizində yerləşir. 4) Azər-

baycan zəngin təbii sərvətə malikdir. 5) Azərbaycan intellektual səviyyəsi yüksək olan əhaliyə, çoxəsrlik tarixi ənənələri olan dövlətçiliyə və zəngin mədəni dəyərlərə sahibdir.

Azərbaycanın geosiyasi gücünü şərtləndirən əsas amil onun əlverişli coğrafi məkanda yerləşməsidir. Ümumiyyətlə, klassik və müasir geosiyasət nəzəriyyələrində coğrafi mövqe əsas faktor kimi qəbul edilir. Etnosu, xalqı formalaşdıran əsas amil kimi coğrafi mövqe, təbii mühit göstərilir və ərazi milli ruhun məkanı hesab edilir. Geosiyasətdə ölkənin dəniz ətrafında yerləşməsinə xüsusi önəm verilir. Bu baxımdan Azərbaycanın dəniz sahilində yerləşməsi onun geostrateji əhəmiyyətini xeyli artırır. Xəzər dənizi Azərbaycan üçün həm hərbi strateji təhlükəsizlik, həm ticarət, həm də mineral və digər sərvətlər cəhətdən əhəmiyyətlidir. Eyni zamanda ölkəmizin dəniz ətrafında yerləşməsi ona yaxın qonşularla hərtərəfli əməkdaşlıq qurmasına imkan verir. Qısası, Azərbaycanın coğrafi mövqeyi yaxın və uzaq böyük dövlətlərin regionla bağlı geosiyasi maraqlarında ölkəmizə önəmli yer verməsini stimullaşdırır.

Regionumuzla bağlı geosiyasətində ölkəmizə xüsusi önəm verən dövlətlərdən biri bu gün dünyanın fövqəldövləti sayılan ABŞ-dır. Son 15 ildə Vaşinqtonun Azərbaycana yönələn xarici siyasətinin əsasında 2 amil dayanır: ölkəmizin geostrateji mövqeyi və zəngin enerji ehtiyatlarına malik olması. ABŞ-ın geosiyasətində əsas yer tutan mondalizm siyasəti Ağ Evin ölkəmizlə bağlı geostrateji maraqlarını ön plana çıxarır. Mondalizm siyasəti dünyanın unikal coğrafi məkanı üzərində qurulur. ABŞ-ın unikal coğrafi məkan hesab edilən Azərbaycanla münasibətlərinə də məhz bu prizmadan yanaşılmalıdır. Görkəmli Amerika politoloqu Z.Bjezinski Azərbaycanın geosiyasi əhəmiyyətini belə şərh edir: «Azərbaycan zəngin enerji ehtiyatına malik olan ölkədir. Azərbaycan Xəzər dənizi və Mərkəzi Asiya sərvətinin Avropaya açılması üçün açar əhəmiyyətinə malikdir» (1, 62). Z.Bjezinski haqlı olaraq qeyd edir ki, əgər Azərbaycan təmamilə Moskvanın nəzarəti altına düşmüş olarsa, onda Orta Asiya ölkələrinə müstəqil dövlət kimi baxmaq olmaz. Yəni Azərbaycanın Avrasiya məkanında dəhliz rolunu oynaması Vaşinqton üçün geostrateji əhəmiyyət daşıyır.

Azərbaycanın dəniz ətrafında yerləşməsi də ABŞ-ın ölkəmizə olan geosiyasi maraqlarını daha da artırır. Amerika geopolitikasında «dəniz hökmranlığı» (Sea power) mühüm konsepsiyalardan biridir. A.Mehenin müəllifi olduğu bu konsepsiyaya görə, əgər ABŞ qlobal rolunu artırmaq istəyirsə, xarici siyasət strategiyasında dünya dənizlərinə çıxmaq və onlara nəzarət etmək doktrinasına üstünlük verməlidir (2, 38).

ABŞ qlobal səviyyədə liderliyini saxlamaq üçün siyasətini 4 istiqamətdə həyata keçirir: 1) hərbi; 2) iqtisadi; 3) texniki; 4) mədəni. Demək olar ki, bütün bu istiqamətlərdə Birləşmiş Ştatlar ölkəmizlə əlaqələrini inkişaf etdirir. İlk növbədə iqtisadi sahədə ABŞ Azərbaycanın əsas partnyorlarından birinə çevrilib. ABŞ-a məxsus transmilli şirkətlər ölkəmizin neft sənayesinə milyardlarla dollar dəyərində investisiya qoymaqla və «qara qızıl»ın dünya bazarına çıxarılmasında yaxından iştirak etməklə Vaşinqton Azərbaycana neft strategiyasını həyata keçirməkdə böyük dəstək verir. Geosiyasətdə mühüm rol oynayan neft amili bu gün hər iki dövlətin geosiyasi maraqlarının uzlaşdırılmasında əsas vasitələrdən birinə çevrilib. ABŞ həmçinin Azərbaycan iqtisadiyyatının digər sahələrinə də investisiyalar qoyur. Onların inkişafı üçün elmi-texniki yar-

dımlar göstərir.

ABŞ-ın Azərbaycanla münasibətlərində əsas önəm verdiyi məsələlərdən biri də hərbi təhlükəsizlikdir. ABŞ və Azərbaycanın bu sahədə əməkdaşlığı əsasən NATO çərçivəsində həyata keçirilir. Azərbaycanla ABŞ-ın dominantlıq etdiyi bu hərbi siyasi blok arasında əməkdaşlıq «Sülh naminə tərəfdaşlıq», «Fərdi əməkdaşlıq» proqramlarına uyğun olaraq genişlənir.

Çox da uzaq olmayan perspektivdə Azərbaycanın NATO-ya üzv dövlət kimi daxil olması istisna edilmir. Azərbaycanın Avro-Atlantik strukturlara inteqrasiyası ABŞ-ın geosiyasi maraqlarına daxildir. İlk növbədə Rusiya və İranın regionda mövqelərinin zəiflədilməsi baxımından bu, Vaşinqton üçün olduqca əhəmiyyətli bir prosesdir. ABŞ Şimalda Atlantika Alyansını Şərqə doğru genişləndirməklə əsas məqsədlərdən birinə – Rusiya ətrafında «təhlükəsizlik kəmərinə» nail olmaq istəyir. Vaşinqton Azərbaycanı gələcəkdə bu «təhlükəsizlik kəməri»nin vacib halqası kimi götürdüyündən ölkəmizi regionda Şimaldan və Cənubdan gələn təzyiqlərə davamlı, müstəqil, iqtisadi cəhətdən güclü, Avropa dəyərlərini bölüşən dövlət kimi görmək istəyir. Bu baxımdan ABŞ Azərbaycanın və eləcə də, bölgənin Qərbə inteqrasiyasını sürətləndirən böyük regional proyektlərin (Bakı-Tbilisi-Ceyhan magistralının çəkilməsi, tarixi «İpək yolu»nun bərpası və s.) reallaşmasında müstəsna rol oynamışdır. ABŞ həmçinin GUAM çərçivəsində gedən inteqrasiya proseslərinə də ciddi maraq göstərir və yaxın gələcəkdə regionda mükəmməl siyasi, iqtisadi, hərbi blokun formalaşmasını dəstəkləyir.

ABŞ-ın Azərbaycanla bağlı siyasətində kifayət qədər pozitiv məqamlarla yanaşı neqativ istisnalar da mövcuddur. Bu da Vaşinqtonun Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsində daha pozitiv və fəal rol oynamaması ilə bağlıdır. Düzdür, ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bununla belə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktına hələ layiqli qiymətini verməyib. Rusiyadan fərqli olaraq ABŞ münaqişənin tez həll edilməsində maraqlı olsa da, bu nizamasalmanın hansı şərtlər altında həyata keçirilməsi onu az maraqlandırır. Beynəlxalq birliyin əsas dövləti sayılan ABŞ münaqişənin həlli prosesində təcavüzkara və təcavüzə məruz qalana eyni münasibət göstərir, bir sıra hallarda Azərbaycana daha çox təzyiqlər edir, nəinki Ermənistana. Bu sırada, vaxtilə, ABŞ Konrqesində Azərbaycana dövlət yardımlarını qadağan edən «907-ci düzəliş»i yada salmaq kifayətdir. Qeyd edək ki, bu «ədalətli» düzəliş hələ də tam olaraq aradan qaldırılmayıb. ABŞ-ın münaqişənin həlli ilə bağlı tutduğu ikili yanaşmanın səbəblərini qısaca olaraq bu formada sadalamaq olar: regionda balanslaşdırılmış siyasət yeritməklə Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarmağa çalışması, erməni lobbisinin ABŞ-da aktiv fəaliyyəti və nəhayət dini faktor.

Bununla belə, Azərbaycanın ABŞ-ın geosiyasi maraqlarındakı yeri Vaşinqtonun ölkəmizlə münasibətlərini müttəfiqlik səviyyəsinə qaldırmağı tələb edir. Eyni zamanda, ölkəmizin milli maraqları da Azərbaycanın Avro-Atlantik məkanın bir hissəsinə çevrilməsini şərtləndirir. Məhz bu tezisdən çıxış edərək hər iki dövlət bütün sahələrdə münasibətlərini dərinləşdirməyə çalışırlar.

Azərbaycanın geosiyasi mövqeyi, keçdiyi tarixi yol iqtisadi, siyasi inkişafla və təhlükəsizliklə bağlı perspektiv maraqları ölkəmizi Avropa ailəsinə yaxınlaşdırır. Ölkəmiz yalnız Qərbin demokratik dəyərlərini qə-

bul etməklə bəlli istiqamətlərdən gələn siyasi, ideoloji, iqtisadi, hərbi təhdidlərin qarşısını ala bilər. Bu səbəbdən də Azərbaycan xarici siyasət strategiyasında Qərbə üstünlük verir. Ümumiyyətlə, son 200 il ərzində Avropaya meyllilik Azərbaycan ictiami şüurunda özünə geniş dəstək tapmışdır. Hələ XIX əsrin ortalarında M.F.Axundov, A.A.Bakıxanov kimi böyük mütəfəkkirlər xalqı maarifləndirməyin yolunu, Avropa mədəniyyətini mənimsəməkdə görürdülər. Lakin adlarını qeyd etdiyimiz şəxsiyyətlər və onların ardıcılları Avropa mədəniyyətinin daha çox elmi zəmində inkişafına tərəfdar idilər və milli-mənəvi dəyərlərin qorunmasına xüsusi önəm verirdilər. Yəni, onların «avropaçılığ»ı milli avropaçılıq idi. Azərbaycan bütün mənalarda Şərqlə Qərbin qovşağında yerləşdiyindən milli mədəniyyətində hər iki sivilizasiyaya aid olan elementləri birləşdirir. Bununla belə, qeyd etdiyimiz kimi, son yüzillərdə müəyyən tarixi proseslər nəticəsində milli mental şüurda Avropa dəyərləri xeyli populyarlaşmışdır. Məhz bu baxımdan təsadüfi deyil ki, Şərqdə ilk opera və ilk demokratik dövlət Azərbaycanda yaranmışdır.

Beləliklə, Avropa ilə Azərbaycan arasında əməkdaşlıq tarixi ənənələrdən irəli gəlir. İstər Azərbaycan Xalq Cumhuriyyəti, istərsə də onun hüquqi-siyasi varisi sayılan müasir Azərbaycan dövləti xarici siyasətində bu tarixi ənənələrə xüsusi yer verir. Bu gün Avropa dünyanın real güc mərkəzlərindən biri sayılır. Avropanın gücünü əsasən iqtisadi, siyasi, hərbi güclə xarakterizə etmək olar. Avropanın gücünü artıran onun həm də vacib geosiyasi mərkəz olmasıdır. Hazırda Avropa ölkələri dünyanın müxtəlif regionlarında ümumi maraqlardan irəli gələn siyasətlərini az qala vahid dövlətə çevrilməkdə olan Avropa İttifaqı çərçivəsində həyata keçirirlər. Avropa İttifaqı əməkdaşlıq etdiyi ölkələr qarşısında üç şərt qoyur: 1. Azad bazar iqtisadiyyatına keçmək. 2. Demokratikləşmək prosesi. 3. İnsan hüquqlarının qorunması. Tarix sübut edir ki, yalnız bu şərtləri yerinə yetirməklə davamlı stabillikdən, uzunmüddətli inkişafdan danışmaq olar. Azərbaycan da inkişafını yalnız bu prinsiplər əsasında gördüyündən Avropa ilə əməkdaşlığı strateji məqsədlərindən biri hesab edir.

Azərbaycanın geosiyasi mövqeyi ölkəmizin Avropanın xüsusi maraq dairəsinə daxil olmasına imkan verir. Avropanın Azərbaycandakı geosiyasi marağını bu amillər təşkil edir: 1. Avropa Azərbaycan vasitəsilə Orta Asiyaya çıxır. 2. Azərbaycan enerji resursları ilə zəngindir. 3. Azərbaycan xalqının üstün intellektual səviyyəsi, informasiya qabiliyyəti var.

Azərbaycanın Qərblə əməkdaşlığı milli mənafe, təhlükəsizlik mənafeyi baxımından qiymətləndirməsi, Avropaya regionda geosiyasi maraqlarını reallaşdırmağa geniş imkanlar verir. İlk növbədə, Avropa Azərbaycan vasitəsilə Mərkəzi Asiyada və Cənubi Qafqazda mövqelərini möhkəmləndirmək siyasətini həyata keçirir. Həmçinin Azərbaycanın enerji resursları ilə zəngin olması və Avrasiya məkanında dəhliz rolunu oynaması Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynaya bilər. Son aylarda Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı imzalanan sənədlərdə enerji təhlükəsizliyinə xüsusi yer verilir. Avropa Azərbaycan vasitəsilə əlavə enerji mənbəyi əldə etməklə Rusiyadan enerji asılılığını azaltmaq istəyir. Bir məsələni də qeyd etmək istərdim ki, Avropa-Azərbaycan münasibətlərində qitənin əsas dövlətləri sayılan Fransa, Böyük Britaniya və Almaniyanın regionla bağlı geosiyasi maraqları mühüm rol oynayır. Demək olar ki, ölkəmizlə bu böyük dövlətlərin münaisbətləri geosiyasi maraqlar üzərində qurulur.

Geosiyasi baxımdan bu dövlətlər Qafqazı və Xəzər regionunu özlərinin maraq dairəsinə aid edir. 1996-cı il oktyabr ayında Bakıda olarkən Fransanın xarici işlər naziri Everi de Şarlet bəyan etmişdir: «Avropa Atlantikdən başlayıb Xəzərdə qurtarır» (3).

Göründüyü kimi, Avropanın bu böyük dövlətlərinin Azərbaycanla əməkdaşlığı onların dövlət mənafelərinə tamamilə uyğundur. Həmin dövlətlərin Azərbaycandakı geosiyasi maraqları əsasən iki amillə bağlıdır 1. Azərbaycan vasitəsilə Qafqaz və Orta Şərq siyasi regionunda mövqelərini möhkəmləndirmək. 2. Ölkəmizin enerji resurslarından və digər təbii sərvətlərindən bəhrələnmək. Eyni zamanda Azərbaycanın da bu dövlətlərlə əməkdaşlığı dərinləşdirməsi siyasəti ölkənin həyati mənafeyindən irəli gəlir. Həmin dövlətlərin beynəlxalq siyasətdəki rolu, iqtisadi inkişaf səviyyəsi, sivil dəyərlərə, güclü diplomatik təcrübəyə və informasiya vasitələrinə malik olması, Azərbaycanın bu ölkələrlə geniş əməkdaşlığını zəruri edir. Bu əməkdaşlıq gənc dövlət olan Azərbaycan üçün dünyada gedən iqtisadi, siyasi, mədəni inteqrasiya proseslərində fəal iştirakını təmin etmək, demokratik dövlət quruculuğunu sürətləndirmək və ərazi bütövlüyünü qorumaq baxımından böyük əhəmiyyət daşıyır. Beləliklə, Azərbaycanın Avropaya inteqrasiyasını ən düzgün yol və taixi seçim hesab etmək olar.

ABŞ-ın və Avropanın regionumuzda və o cümlədən, Azərbaycanda geosiyasi maraqlarının toqquşduğu əsas dövlət Rusiyadır. Qərbdən fərqli olaraq, Rusiya regionumuza daha əvvəldən gəlib və son illərdə bu gəlişin gedişlə əvəz olunması prosesi Moskvanı qıcıqlandıran əsas məsələlərdən birinə çevrilib. Qafqazı, Xəzər bölgəsini özünün təsir dairəsinə aid edən Rusiya bura Qərbin daxil olmasına qarşı çıxır və gedən obyektiv tarixi prosesi qabaqlamağa çalışır. Lakin son illərin hadisələri göstərir ki, Moskvanın bu cəhdləri uğursuzluğa məhkumdur. Rusiya imperiya iddialarından əl çəkməsə də, artıq inkarolunmaz reallıqdır ki, Sovet İttifaqı dağılandan sonra əvvəlki geosiyasi mövqeyini itirmişdir. Artıq Rusiya əvvəlki kimi Baltik dənizində və Qara dənizdə, cənubi Qafqazda və Mərkəzi Asiyada hegemonluq edə bilmir.

Bununla belə, Rusiya bu ərazilərdə itirdiyi mövqelərini bərpa etmək üçün ənənəvi siyasətini də inadla davam etdirir. Bu da, zorakılıq siyasətinə üstünlük verən Rusiyada imperiya şüurunun tarixən hakim mövqedə olması ilə bağlıdır. Bu kontekstdə Rusiyanın keçmiş xarici işlər naziri A.Kozırevin yazdıqları maraq doğurur. O yazmışdır: «Rusiyada imperiya şüuru ilə yanaşı siyasi avantürizm hökm sürür» (4, 12). Həqiqətən də, hələ də Moskvada müəyyən dairələr qonşu müstəqil dövlətlərə sattelit kimi baxırlar. Rusiya postsovet məkanını təsir dairəsində saxlamaq üçün müxtəlif təzyiq formalarından (siyasi, iqtisadi və bir çox hallarda hərbi) istifadə edir.

Konkret olaraq, Rusiyanın Azərbaycana qarşı siyasi strategiyasında «erməni kartı» mühüm yer tutur. Rusiya Ermənistanın coğrafi mövqeyindən istifadə etməklə, Cənubi Qafqazda mövqelərini qoruyur. Həmçinin, Ermənistanı silahlandırmaqla, Azərbaycanı təsir altında saxlamağa çalışır. Bu amil isə Ermənistanın təcavüzkarlığını daha da artırır. Rusiyanın Ermənistandakı keçmiş səfiri V.Stupin «19-cu əsrin astanasında Rusiya ilə Ermənistanın strateji tərəfdaşlığı» adlı məqaləsində yazmışdır: «Ermənistan Dağlıq Qarabağ ilə birlikdə Zaqafqaziyada bizim yeganə əsl müttəfiqimiz və strateji tərəfdaşımızdır» (5). Göründüyü ki-

mi, Rusiya Ermənistana geosiyasi mövqeyinə görə mühüm əhəmiyyət verir. Ümumiyyətlə, Ermənistan Rusiyanın regionda qonşu dövlətlərə qarşı istifadə etdiyi oyuncaq dövlətə çevrilmişdir.

V.Putin prezident seçiləndən sonra Rusiyanın yeni geosiyasi maraqlarını irəli sürmüşdür. Rusiya MDB məkanında mövqelərinin daha da möhkəmlənməsi strategiyasına üstünlük verir. Xüsusilə, Qafqaz-Xəzər regionu Rusiyanın həyati əhəmiyyətli maraqlarına daxil edilmişdir. Azərbaycanın geosiyasi şəraiti Rusiya üçün əhəmiyyətli məkan hesab edilir. Azərbaycan vasitəsilə Rusiya Cənubla əlaqə saxlayır. Digər tərəfdən, aydındır ki, Azərbaycan Rusiya siyasətinə tabe edilsə, Türkiyənin və Qərbin Qafqazda mövqeləri xeyli zəifləyəcək, Mərkəzi Asiya ilə əlaqələr kəsiləcəkdir.

Rusiyanın regionda Qərbə qarşı geosiyasi maraqlarının üst-üstə düşdüyü dövlət İrandır. Hər iki dövlət NATO-nun Şərqə doğru irəliləməsini və ümumiyyətlə, ABŞ-ın və Avropanın regionda təsirinin artmasını özləri üçün böyük təhlükə hesab edirlər. Bu baxımdan, Rusiya İranla bütün sahələrdə, xüsusilə, hərbi sahədə yaxından əməkdaşlıq edir. Təsadüfi deyil ki, Rusiya İranın uranla və digər reaktiv maddələrlə «zənginləşməsində» böyük xidmətlər göstərmişdir. Rusiyanın Qərbə qarşı Asiyada digər müttəfiqləri Çin və Hindistandır.

Bir vacib məqamı da vurğulamaq istərdim ki, Rusiya əvvəlki fövqəldövlət statusunu itirsə də, Avrasiya kontinentinin əsas güc mərkəzlərindən biri kimi qalmaqdadır. Rusiyanın regional güc kimi mövqelərini qorumağa imkan verən amillər bunlardır: 1. Rusiya BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir. 2. Rusiya nüvə dövlətidir və ABŞ-la nüvə paritetini saxlamaqdadır. Həmçinin yüksək hərbi texnologiyalara və güclü orduya malikdir. 3. Rusiya təbii sərvətlərlə zəngin olan və Avrasiya qitəsinin böyük bir hissəsini əhatə edən geniş ərazilərə malikdir. Qeyd edək ki, Rusiya ərazisinə görə dünyada birinci yeri tutur. 4. Rusiya əsas sivilizasiya mərkəzlərindən biri sayılır. Bütün bu amillərə görə Qərb Rusiya ilə ehtiyatlı davranmağa üstünlük verir və bir çox məsələlərdə Moskvanın marağını nəzərə alır. Eyni zamanda Azərbaycan da şimal qonşumuzla münasibətlərə həssaslıqla yanaşır və daha çox iqtisadi, mədəni əlaqələrin genişlənməsinə xüsusi diqqət verir. Azərbaycan Rusiya ilə münasibətlərin hər iki dövlətin milli mənafeyi və bərabər əməkdaşlıq əsasında qurulmasının tərəfdarıdır. Rusiya Azərbaycanla, eləcə də digər gənc müstəqil dövlətlərlə münasibətlərini yüksək səviyyədə qurmaq istəyirsə, həmin demokratik prinsipləri qəbul edərək həmin ölkələrin suveren hüquqlarını tanımalı, seçimlərinə hörmətlə yanaşmalıdır.

Geosiyasi maraqlarında Azərbaycana xüsusi yer verən dövlətlərdən biri də İrandır. İslam ölkələri arasında İran siyasi-iqtisadi, hərbi gücünə görə üstün mövqelərdən birini tutur. Fars körfəzi, Xəzər dənizi, Qafqaz, Hind-Çin yarımadası, Orta Asiya regionu ilə kommunikasiyaya malik olması İranın geosiyasi gücünü artırır. İran zəngin neft ehtiyatlarına və digər təbii resurslara malikdir. İslam dövləti olan İran daxili və xarici siyasət strategiyasının dini dəyərlərə əsaslandığını bəyan edərək həyata keçirir. İslam dini dəyərlərini dövlət ideologiyasına çevirməklə İran dövləti daxildə ölkənin bütövlüyünü qorumaq, vahid düşüncə tərzini formalaşdırmaq, həmçinin yaxın və uzaq islam ölkələri ilə əlaqələrini dərinləşdirmək kimi strateji məqsədlərini reallaşdırmağa çalışır. Bütün bu amillərin mövcudluğu İranı geostrateji cəhətdən «fəal» ölkə adlandır-

mağa imкan verir.

1979-cu il İslam inqilabından sonra İranın xarici siyasət кonsepsiyasında əsaslı dəyişiкliкlər baş verdi. İran Yaxın Şərq, Mərкəzi Asiya və Qafqaz regionlarını özünün xüsusi maraq dairəsinə daxil etdi. Xarici siyasət strategiyasını dini ideologiya üzərində quran İran anti-ameriкan, anti-yəhudi, anti-türк siyasətinə üstünlüк verir. İranın geosiyasi mövqeyi onu Rusiya ilə yaxınlaşdırır. İranın Qərblə, Türкiyə ilə geosiyasi maraqlarının toqquşduğu əsas bölgələrdən biri Qafqaz, Xəzər regionu, xüsusilə Azərbaycandır. Azərbaycanın geosiyasi əhəmiyyəti İran üçün aşağıdaкı amillərlə xaraкterizə olunur:

- Azərbaycan şimala çıxış nöqtəsi və Mosкva-Tehran geosiyasi oxu arasında dəhliz rolunu oynayır;
- Azərbaycanın təbii sərvətlərlə zəngin olması;
- Azərbaycanla eyni dini dəyərləri bölüşür;
- Tarixi əlaqələr, mədəniyyət və adət-ənənə yaxınlığı.

Bütün bu amilləri nəzərə alaraq İran Azərbaycanda geosiyasi maraqlarını həyata кeçirməyə çalışır. İslam dövləti olmasına baxmayaraq, İran Azərbaycana münasibətdə iкili yanaşma siyasətinə üstünlüк verir. Bunun da başlıca səbəbi İranın ölкə ərazisində yaşayan 30 milyona yaxın Azərbaycan türкünün Şimali Azərbaycanla bütövləşməк arzusundan qorxmasıdır. Bu baxımdan Tehran Azərbaycan dövlətinin güclənməsində, inкişaf etməsində maraqlı deyil. Ona görə də Ermənistanla hərtərəfli əlaqələr quraraq ondan Azərbaycan və Türкiyə əleyhinə təzyiq vasitəsi кimi istifadə edir. Bununla da regionda geosiyasi mövqeləri yaxın olan üç dövlətin Rusiya, Ermənistan və İranın oxu yaranır. Bu baxımdan Azərbaycan regionda balansa nail olmaq üçün Avroatlantiк struкturlara inteqrasiya edir, GUAM dövlətləri ilə əməкdaşlığı dərinləşdirir və nəhayət Türкiyə ilə strateji müttəfiqliyini inкişaf etdirir.

Tehranın Azərbaycanın xarici siyasət strategiyasını qəbul etməməsi iкi ölкə arasında mübahisəli məsələlərin yaranmasına səbəb olur. Belə mübahisəli məsələlərdən biri də Xəzərin hüquqi statusunun müəyyən edilməsində İranın Azərbaycanla razılığa gələ bilməməsidir. ABŞ ilə кəsкin strateji ziddiyyətlərinə görə İran Azərbaycanın bağladığı neft müqavilələrini və Xəzərin seкtorlara bölünməsini qəbul etmir. İran Xəzər ətrafına кənar dövlətlərin gəlməsinə qarşı çıxır. Tehranın belə bir mövqeyi onun «regional liderliк» iddiasından irəli gəldiyindən və sahilyanı ölкələrin hüquqlarını pozduğundan Azərbaycan dövləti tərəfindən qəbul edilə bilməz.

Cənub qonşumuzla ölкəmizin geosiyasi mövqelərində ciddi uyğunsuzluqların olmasına baxmayaraq, hər iкi dövlətin maraqları və milli təhlüкəsizliк mənafeləri qarşılıqlı münasibətlərin inкişafını tələb edir. İran bir sıra daxili və xarici faкtorlara görə Azərbaycanla istər siyasi, iqtisadi, istərsə də, mədəni əlaqələrin inкişafında maraqlıdır. Eyni zamanda Azərbaycan da xarici siyasətində İranla münasibətlərin inкişafına ciddi önəm verir. Xüsusilə, iqtisadi sahədə İranla əməкdaşlıq Azərbaycanın geosiyasi mənafeyinə uyğundur. Bu baxımdan hər iкi dövlət bir çox sahələrdə uğurla əməкdaşlıq edir və münasibətlərin hədsiz dərəcədə sərinləşməsinə imкan vermirlər.

Türкiyəni regionda və dünyada Azərbaycanın ən yaxın strateji müttəfiqi hesab etməк olar. İкi qardaş ölкəni həm geosiyasi mövqe bir-

liyi, həm də tarixi soykök, dil, mədəniyyət birliyi yaxınlaşdırır. Azərbaycanın müstəqilliyini ilk dəfə olaraq Türkiyə 1991-ci il noyabrın 11-də tanımışdır və həmin dövrdən başlayaraq iki ölkə arasında olan münasibətlər strateji müttəfiqlik səviyyəsinə qalxmışdır. Tükiyə dövləti Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün onun beynəlxalq əlaqələrinin genişlənməsinə kömək edir. Türkiyə Azərbaycana dəstək verən yeganə ölkədir ki, Ermənistanın təcavüzkarlıq siyasətini ardıcıl olaraq pisləyir və onunla siyasi, iqtisadi, diplomatik əlaqələr saxlamır. Bir məsələni də qeyd etmək istərdim ki, Ermənistanın xarici siyasət strategiyası yalnız Azərbaycana qarşı deyil, həm də Türkiyə əleyhinə yönəlib.

Azərbaycan Türkiyənin geosiyasi strategiyasında mühüm yer tutur. İlk növbədə Ankara Azərbaycanla münasibətlərinə arxalanaraq Qafqaz və Mərkəzi Asiyada mövqelərini möhkəmləndirmək istəyir. Türkiyə Azərbaycan vasitəsilə Qafqaz və Orta Asiya ilə əlaqələr saxlayır. Azərbaycan Orta Asiyanın Türk respublikaları ilə körpü rolunu oynayır. Türkiyə tədqiqatçısı Suat İlhana görə: «Türkiyə və Türküstan arasında Azərbaycan geosiyasətdir» (6, 158). Həqiqətən də, Azərbaycanın türk dünyasında geosiyasi mövqeyi Türkiyə üçün olduqca önəmlidir.

Eyni zamanda, Azərbaycan Türkiyənin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. «Bakı-Tiflis-Ceyhan» neft magistralının reallaşması Türkiyənin geosiyasi əhəmiyyətini artırmaqla yanaşı onun neftə olan tələbatını da müəyyən mənada ödəyir. Bəllidir ki, Türkiyə geosiyasətinin mənfi amili neft ehtiyatının çatışmazlığıdır. Məhz bu baxımdan neft amilinin iki qardaş ölkənin münasibətlərinin inkişafında xüsusi payı var.

Qeyd etdiyimiz kimi, Türkiyə dövləti Qafqazda və Mərkəzi Asiyada nüfuzunu saxlamaq üçün Azərbaycana təbii müttəfiq kimi baxır. Bu səbəbdən də, Azərbaycanla demək olar ki, bütün sahələrdə yaxından əməkdaşlıq edir. Lakin Türkiyənin regionda olan geostrateji maraqları Rusiya və İran faktorları ilə toqquşur. Bölgədə olan geosiyasi ziddiyyətlərin mövcudluğu şəraitində Türkiyə Qərbin strateji müttəfiqi kimi siyasətini həyata keçirir. Buna görə də, Ankara NATO-nun Şərqə doğru irəliləməsində maraqlıdır. Türkiyə Qafqazda nüfuzunu genişləndirmək üçün ABŞ-ın Şərq siyasi strategiyasının həyata keçməsində yardımçı rol oynayır. Türkiyə – Azərbaycan münasibətlərinə həmçinin bu kontekstdən yanaşılmalıdır.

Türkiyə Azərbaycana həm də Rusiya və İran arasında «sanitardəhliz» rolunu oynayan geosiyasi mərkəz kimi baxır. Həmçinin, Gürcüstan da Türkiyənin Qafqaz geostrategiyasında mühüm yer tutur. Beləliklə, gedən proseslər regionda Türkiyə – Gürcüstan – Azərbaycan strateji müttəfiqliyini qaçılmaz edir. Belə bir birlik formasının yaranması Qafqazda Rusiya və İranın təsirlərini neytrallaşdıra bilər. Son illərdə üç dövlət arasında təhlükəsizlik və siyasi-iqtisadi əməkdaşlıqla bağlı çox mühüm sənədlər imzalanmışdır. Türkiyənin Rusiya və İranla geosiyasi ziddiyyətlərinə baxmayaraq, Ankara bu dövlətlərlə ilk növbədə iqtisadi zəmində münasibətlərin yaxşılaşmasında maraqlıdır.

Türkiyənin geosiyasi gücü Azərbaycan üçün olduqca cəlbedici görünür. Azərbaycan bu gücü öz təhlükəsizliyinin təmin olunmasında və Qərbə inteqrasiyasında mühüm vasitələrdən biri hesab edir. Türkiyənin geosiyasi imkanlarını aşağıdakı amillərlə xarakterizə etmək olar:

- Avropa və Asiyanın qovşağında yerləşməsi;
- NATO-ya daxil olması;
- Liberal iqtisadi və siyasi sistemin olması;
- Dənizlə əhatə olunması;
- Qərb və Şərq mədəniyyətinin qovuşması;
- Güclü əsgəri qüvvəyə maliк olması.

Beləliкlə, Azərbaycan və Türкiyənin müttəfiqliyini təbii edən əsas cəhətlər кimi iкi ölкənin eyni etniк soyкöкü, dili və mədəniyyəti bölüşməsi ilə yanaşı, geostrateji maraqlarını da göstərməк olar. Azərbaycan və Türкiyənin strateji müttəfiqliyinin dərinləşməsi bütövlüкdə türк dünyasının, türк mədəniyyətinin və nəhayət bir etnosun geosiyasi gücünün yüкsəlişi deməкdir.

## QEYDLƏR


1. Бжезинский З. Великая шахматная доска. М.: 1999.
2. Pasкal Loro, Fransua Tüal «Geopolitiкa», (F.Həsənoğlunun fransız dilindən tərcüməsi), Bакı: 2001.
3. «Xalq qəzeti» 15 окtyabr, 1996-cı il.
4. Козырев А.Стратегия и партнерство// Международная жизнь. №5, 1994.
5. Независимая газета. 23 июня 1999.
6. Suat İlhan. Türkiyənin və türk dünyasının geopolitiki. Ankara: 1993.


## МИРОВЫЕ ГОСУДАРСТВА ИМЕЮЩИЕ ГЕОПОЛИТИЧЕСКИЕ ИНТЕРЕСЫ ПО ОТНОШЕНИЮ К АЗЕРБАЙДЖАНУ


**М.М.МАМЕДЛИ**


### РЕЗЮМЕ


В статье анализируется политика великих государств по отношению к Азербайджану, имеющих геополитические интересы в регионе.

Автор рассматривает Евроатлантическую интеграцию и стратегическое партнерство с Турцией в качестве одного из основных направлений стратегии внешней политики нашей страны. В работе отмечено, что внешнеполитическая стратегия нашей страны определяется сложным геополитическим положением в регионе, а также взаимоотношением и перспективными интересами соседних стран.


## THE GREAT STATES' POLICY CLOSED AZERBAIJAN WHICH HAVE GEOPOLITICAL INTERESTS IN THE REGION IS EXAMINED


**M.M.MAMMADLY**


### SUMMARY


The great states' policy closed azerbaijan which have geopolitical interests in the region is examined in the article. The author shows the integration of azerbaijan to the euro-atlantic space and strategic partnership with turkey as one of the main duties of the foreign policy strategy of azerbaijan in his article. It is noted that the settlement of azerbaijan in the complex region, the relationship with neighbor states and prospect interests determine foreign policy strategy of our country.